# Goranboy abidələri

## 2500 illik tariximizə şahidlik edir

**Azərbaycan xalqının mədəni irsinin, çoxəsrlik keçmişimizdən yadigar qalmış abidələrin öyrənilməsi və mühafizəsi müstəqillik illərində dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.**

Sivilizasiyanın ilkin mərkəzlərindən olan yurdumuzda minilliklər ərzində dünya mədəniyyət xəzinəsinə daxil olmuş zəngin mədəni irs yayılmışdır. Ən qədim insan məskənlərindən sayılan Azıx, Qazma, Aveydağ, Buzeyir və s. mağaralar, daş dövrünə aid bir sıra insan məskənləri sübut edir ki, Azərbaycan antropogenez zonasına daxildir və bəşəriyyətin ilk beşiklərindəndir.

Təəssüf ki, işğalçı dövlətlər zaman-zaman qədim tarixi abidələrimizin dağıdılması və xalqın milli-mənəvi kökündən qoparılması istiqamətində düşünülmüş siyasət yeritmişdir. Yalnız ümummilli lider Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gəldikdən sonra abidələrimiz canlı tarix kimi dəyərləndirilmiş və qorunmağa başlanmışdır. Mədəni irsin mühafizəsi və təbliği məqsədilə 1970 -1973-cü illərdə ulu öndərin rəhbərliyi altında 15 mühüm qərar qəbul edilmişdir. Təkcə 1973-cü ildə keçmiş tarixi yaşadan 11 abidə bərpa olunaraq istifadəyə verilmiş və 200 abidə dövlət xətti ilə mühafizəyə götürülmüşdür.

Ulu öndərin mədəniyyətimizə və nəsillərimizə himayədarlığını və milli təəssübkeşliyini bugün Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının diqqət və qayğısı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun rəhbəri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir sıra milli-mənəvi dəyərlərimiz bəşəriyyətin mədəni siyahısına salınmışdır. Bugün həmin incilər dünyada layiqincə tanıdılır və ölkəmizin adına şöhrət gətirir. Keçmiş, bugün və sabah arasında körpü salan mənəvi irsimizin yadigarları olan abidələrimiz tarixi sərvətdir. Onlar üzərində zamanın möhürü olan qiymətli yaddaşdır. Eramızın əvvəlindən bugünümüzə gəlib çatan Goranboy abidələri də tarixilik baxımından əvəzsiz və möhtəşəmdir. Onları tədqiq etməklə ölkəmizin keçmişi, qədim mədəniyyətin burada mövcudluğu haqqında zəngin məlumat əldə edilir.

Coğrafi cəhətdən Azərbaycan ərazisinin mərkəzində yerləşən Goranboy abidələri, xüsusən, arxeoloji nümunələr sübut edir ki, xalqımızın tarixi çox qədimdir. Abidələr üzərində aparılmış araşdırmalar və faktlar sübut edir ki, Azərbaycanın digər ərazisi kimi Goranboy torpağı da türkdilli xalqların yaşadığı və türk mədəniyyətinin təşəkkül tapdığı ilkin ərazilərdəndir. Rayondakı kurqanların (torpaq qəbirlərin) öyrənilməsi bu yerlərin Altay- Yeniseydən başlayaraq Ön Qafqazda, Azərbaycanda yaşamış türk etnoslarına, göy türklərə məxsusluğunu göstərir. Elmi sübutlar bu ərazilərə başqa kiminsə iddia etməsinə əsas vermir.

Qədim tariximiz barədə yazılı məlumatların olmaması, bəzən də ziddiyyət təşkil etməsi arxeoloji qaynaqların öyrənilməsinə daha çox diqqət tələb edir. Arxeoloji nümunələr isə qazıntılar zamanı yeraltı mədəni təbəqələrdən, qəbir abidələrindən, yaşayış məskənlərindən aşkar edilmiş müxtəlif əmək alətlərindən, sadə silah növlərindən, məişət və bəzək əşyalarından, dini təsəvvürləri əhatə edən heykəllərdən, göz muncuqlarından və s. ibarətdir.

Rayonda kurqan abidələrin çoxluğu ərazinin ən qədim insanların yaşayışı üçün əlverişli olduğunu təsdiqləyir. Hazırda rayonda 113 daşınmaz tarix və mədəniyyət abidəsi var. Onun 36-sı kurqan abidələridir. Erkən tunc, (e.ə.IV minilliyin II yarısı – III minilliyin sonu), orta tunc (e.ə.II minilliyin birinci yarısı), son tunc və ilk dəmir dövrlərinə (e.ə.XIV-XVIII əsrlər) aid edilən kurqanlardan tapılmış zəngin maddi-mədəniyyət nümunələri bu yerlərin qədimliyindən danışır. Minilliklərin yaşıdı olan bu kurqanların öz qoynunda əmanət və sirr kimi saxladığı arxeoloji tapıntılar çox şeylərdən xəbər verir. Bu nümunələr əşyaların istehsalı, quruluşu və forması, xammal tərkibi, ərazidə ya-

şayan qədim insanların etnik kimliyi, antropoloji görkəmi, məişət və mədəniyyəti haqqında əvəzsiz sübutlardır.

Aparılan elmi araşdırmalar deməyə əsas verir ki, rayonun ərazisində müəyyən edilmiş kurqanlar pərakəndə halda yerləşmişdir. Kurqanların çoxu dağətəyi ərazilərdə yerləşmişdir. Bu heç də təsadüfi deyildir. Çünki bu ərazilərdən Avropa və Asiyanı birləşdirən qədim ticarət və karvan yolları keçmişdir. Yerli əhali bu yollarla Xəzər və Qara dəniz arasında asanlıqla çıxış əldə etməklə Hindistan, Suriya, Çin, Misir, Avstriya, həmçinin Balkan ölkələri ilə iqtisadi, mədəni əlaqələr yarada bilmişdilər.

2002-ci ildə Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi zamanı rayonun Borsunlu kəndinin Dərə yeri adlanan ərazisində tünd rəngli ilk dəmir dövrü kurqanı və daş üzərində Qafqaz Albaniyasının maddi və mənəvi mədəniyyətini əks etdirən antik dövr qəbir abidələrinin tədqiqinə başlanıldı və qiymətli materiallar əldə olundu. Arxeoloq alimlərin yaşı 3 min ildən çox olan Səfirkürd kurqanında apardığı qazıntılar zamanı aşkar olunmuş nümunələr Tarix-Diyarşünaslıq Muzeyinin tərkibinə qatılmışdır. Bu kurqanlar əsasında ümumilikdə sinifli cəmiyyətin yaranmasına doğru bütöv bir dövrün inkişafını izləmək mümkündür.

Kəşfiyyat xarakterli işlərin ilkin nəticələri, eləcə də kurqan abidələrindən tapılmış zəngin materiallar – qara saxsılar, oxlar, qolbağlar, xəncərlər, pasta muncuqlar və s. isə ərazidəki qədim və gur insan məskənləri haqqında dolğun təsəvvür yaradır. Bu tədqiqatlar rayonun 2300 ildən artıq yaşı olduğunu sübuta yetirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ildə imzaladığı «Azərbaycanda arxeologiya elminin inkişafı» ilə bağlı sərəncam bu sahədə işlərin genişlənməsinə köklü təsir göstərmişdir. 2008-ci ildə rayonun iki ərazisində – Qarabağlı kəndində «İlahi təpə» Səfirkürd kəndində «Çəpər» adlanan yerdəki kurqanlarda arxeoloqlar tərəfindən qazıntı işləri aparılmış, zəngin materiallar əldə olunmuşdur. Həmin nümunələr muzeylərimizdə mühafizə olunur və nümayiş etdirilir.

Əldə olunmuş materiallar üzərində aparılan tədqiqatlar qədim dövrlərdən günümüzə qədər bu ərazidə yaşamış insanların həyat tərzi, məişəti, məşğuliyyəti və mədəniyyəti haqqında qiymətli bilgilər əldə etməyə imkan yaradır. Araşdırmalar göstərir ki, IX-X əsrdən başlayaraq goranboylu sənətkarlar qaba bəzək vurmaq üçün mürəkkəb üsullar bilirmişlər. Qabların üzərini rənglərlə bəzəyir, divarlarını ovub şəffaf mina ilə doldururmuşlar. Ərazidə istehsal olunan dulus qablar və şüşə əşyalar orta əsrlərdə Azərbaycanda bədii sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyini göstərir. O dövrdə Azərbaycanda və Şərq ölkələrində sənətkarlıq Qərbi Avropadan çox yüksəkdə imiş. Qabların üzərinə böyük ustalıqla müxtəlif bəzəklər vururmuş. Yaşıl rəng – bərəkət, sünbül – bolluq, atlı – hünər, dovşan isə ömrü başa çatmış şər qüvvələr rəmzi imiş.

Goranboy ərazisi bütün ilk orta əsrlər boyu Albaniyanın və Aran ölkəsinin əsas torpaqları olmuşdur. Bu yerləri ayrı-ayrı vaxtlarda sasanilər və xəzərlər, eləcə də ərəblər tutmuşlar. Sonrakı tarixi dövrlərdə monqolların və Hulakilərin (XIII-XIV), Teymurləngin Azərbaycana hücumları zamanı (1396-1405), Ağqoyunlu, Qaraqoyunlu (XV əsr), Səfəvi (XVI əsr) dövrlərində Goranboyda abidə və tikililər dağıdılmış, bu yerlər xarabazarlığa çevrilmişdir. Lakin sənətkarlar yeni-yeni abidələr, qalalar, türbələr yaratmışlar, II-VIII əsrlərə aid Hazırəhmədi (I Kürəkçay) və Qaradağlı (II Kürəkçay) qalaları müdafiə məqsədilə tikilmişdir. Hər iki qala ərəblərin Azərbaycana gəlişi zamanı inşa olunmuşdur.

VI-XII əsrlərə aid Şətəlşəhər qalası o dövrdə Azərbaycan ərazisində strateji əhəmiyyət daşımışdır. Şətəl şəhər qalası Bərdə və Gəncə ətrafında Aranın bu iki şəhərini birləşdirən ticarət-karvan yolunun üstündə yerləşən müdafiə məntəqəsi kimi tanınmışdır.

Qala elə qurulmuşdur ki, onun dörd küncünün hərəsi bir cəhəti göstərir. Qalanın qapısı isə qibləyə doğru istiqamətlənmişdir. Qala haqqında Gəncəli Kirokosun (1200 – 1271 ) «Tarix», ərəb coğrafiyaşünası Yaqut- əl- Həməvinin (1179 – 1229) «Ölkələrin coğrafiya lüğəti», Həmdulla Qəzvinin «Nuzhət-əl- Qulub» kitablarındakı qeydləri, həmçinin orta əsr müəllifi Sixab Əbdin Məhəmməd əl-Nəcəvinin məlumatı olduqca maraqlıdır.

Akademik Ziya Bünyadov «Azərbaycan Atabəylər dövləti» kitabında alınmazlığı və möhkəmliyi ilə seçilən qalalar haqqında danışarkən Şütür(Şətəl) qalası haqqında da geniş məlumat verib. Alim qalanın Atabəylər dövlətinin xəzinəsinin saxlandığı etibarlı yerlərdən biri olduğunu göstərib. 1231-ci ildə Gəncədə Xarəzmşah Cəlaləddin öz katibi Əl-Nəcəvi və köməkçisi Xudaverdini usta Bəndərlə danışığa göndərir. Mənbələrin məlumatlarına görə, danışıqlar Şətəl şəhərində aparılır və nəticəsiz olur. Üsyanın başçısı Bəndər həbs edilərək edam olunur. Şətəl şəhər qalası monqolların Azərbaycana ikinci yürüşü zamanı ciddi müqavimət göstərdiyinə görə tamamilə yandırılmış və bir daha bərpa olunmamışdır. 1940-cı illərdə təsərrüfat işləri aparılan zaman yer səthindən 1,5 metr hündürlükdə qalmış qala divarları tamamilə yandırılmışdır.

Hazırda Şətəl şəhər qala yeri tarixi abidə kimi mühafizə olunur. Ərazidə qazıntı işlərinin davam etdirilməsi nəzərdə tutulur. 2006-cı ildə qala yerində aparılmış qazıntılar zamanı tapılmış sikkələr içərisində 3-ü olduqca maraqlıdır. O dövrdə Azərbaycanda gümüş ehtiyatları olmadığından Atabəylər dövlətinin də pul sistemi mis üzərində qurulmuşdur. Çəkisi 3qram olan birinci sikkənin avers (əsl üzü) hissəsində xətdən yuxarıda «Atabəy», düz xətdən aşağıda isə «Arslan», revers (tərs üzü) hissəsində isə aşağıda «zəfər» sözü oxunmuşdur. İkinci mis sikkənin çəkisi 3,5 qramdır. Avers hissəsinin mərkəzində «Cahan» sözü yazılmışdır, revers hissəsinin mərkəzində birinci sətirdə «Əbubəkr», ikinci sətirdə isə «əzm» sözləri oxunmuşdur. Beləliklə, aşkar olunmuş sikkələrin Eldəgiz (Atabəylər) sultanları Qızıl Arslana və Əbubəkirə aid olduğu təsdiqlənmişdir.

XII əsrdə inşa olunmuş və respublika əhəmiyyətli Gülüstan qalası Murovdağın ətəyində Gülüstan kəndindən 2 kilometr şimalda, dəniz səviyyəsindən 1700 metr hündürlükdə, sıldırım qayalıq üzərində tikilmişdir. Müdafiə xarakterli Gülüstan qalası 3 arakəsmədən ibarətdir. Qala öz formasına görə gəmini xatırladır ki, bu da ərazinin relyefi ilə bağlıdır. Qala divarları boyunca 4 gözətçi məntəqəsi, 12 mazqal (müşahidə gözcüyü) var. Qalanın daxilindəki eniş hissələrdə qar və yağış sularını yığmaq üçün ovdanlar da düzəldilmişdir.

Qaladan İncəçaya qədər 200 metr uzunluğunda gizli yol çəkilmişdir. Daimi su ehtiyatı və su kəmərinin olması hər hansı bir qalanın müdafiəsi zamanı böyük əhəmiyyət kəsb edirdi. Çox güman ki, bu gizli yol qalanı su ilə təmin edən kəmər sıradan çıxarılanda yeraltı tunellə çaya enmək və oradan su götürmək üçün tikilmişdir. İçəridəki qalatipli istehkamlardan orta əsr şəhərlərində çox istifadə olunmuşdur. Onlara bəzən «Narın qala» da deyirdilər. Qala içərisində bu cür istehkam tikintisi mövcud olmuşdur.

1813-cü ildə Rusiya və İran dövlətləri arasında Gülüstan sülh müqaviləsi Gülüstan qalasında imzalanmışdır. 1828-ci ildən sonra İran və digər ərazilərdən məqsədyönlü şəkildə Azərbaycana köçürülən və bu ərazidə yerləşdirilən erməni «başbilənləri» öz havadarları ilə bu qalada oturaraq xalqımıza qarşı çirkin əməlləri davam etdirmişlər. 179 il sonra Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizəyə qalxmış vətənpərvər döyüşçülərimiz bu torpaqları düşmənlərdən azad edərək qala üzərində müqəddəs üçrəngli bayrağımızı sancdılar.

Goranboy ərazisindəki memarlıq abidələri içərisində Borsunlu, Şəfikürd və Rəhimli türbələri xüsusi yer tutur. Bu türbələr milli memarlıq sənətimizin ən yaxşı nümunələrindəndir. Arran memarlıq üslubunda tikilmiş bu abidələr, xəttatlıq, həkkaklıq, memarlıq, epiqrafik, rəssamlıq, sənətşünaslıq və s. baxımından diqqəti cəlb edir, insan əməyinin qüdrətini, sənətkar zövqünün incəliyini nümayiş etdirir. Bu türbələrdə həmin dövrün görkəmli adamları – alimlər, səyyahlar, loğmanlar, şairlər və s. dəfn edilmişdir. Adətən, türbələrin kitabəsi olurdu. Türbələrin giriş qapısı kiçik olurdu. Çox güman ki, bu, ziyarətə gələn adamın türbə sahibinin qarşısında baş əyməsi üçün belə edilirdi.

Türbələr məqbərələrin bina tərzində inşa olunmuş və daxilində xanəsi olan xüsusi formasıdır. Çox hallarda türbələrin yeraltı hissəsi olur ki, o da sərdabə adlanır. Türbələrin tikintisində bir qayda olaraq ağac materialından istifadə edilmirdi. Türbələr yerli tikinti materiallarından – əhəng daşı və ya bişmiş kərpicdən inşa edilirdi. Şirvan – Abşeron, eləcə də dağlıq və dağətəyi Qarabağın türbələri əhəng daşından, Aran Qarabağın, Milin türbələri isə bişmiş kərpiclə, bəzəkləri isə firuzəyi rəngli kaşıdan istifadə edilərək tikilmişdir.

Borsunlu kəndindəki qəbiristanlıqda yerləşən və çoxbucaqlı türbələr qrupuna daxil edilən eyniadlı abidələr qırmızı kərpiclə hörülmüş, içəridən və çöldən gəclə suvanmışdır. Otağın üstü günbəz vasitəsilə bağlanmışdır. Bu türbələr haqqında yazılı ədəbiyyatda məlumata rast gəlinmir. Lakin abidənin divarları və ətrafında aparılan kəşfiyyat işləri zamanı əldə edilən maddi-mədəniyyət nümunələrinin qalıqları onu XIII-XV əsrlərə aid etməyə imkan verir.

Azərbaycan tarixşünaslığının ən qiymətli məxəzlərindən olan «Qarabağnamə» əsəri çoxlarına tanışdır. Əsər 1736-cı ildən 1828-ci ilə kimi bir dövrü işıqlandırır. Əsər xüsusən 1813-cü ildən sonra Qarabağda baş vermiş hadisələri təsvir edən ilk mənbədir. Mirzə Adıgözəl bəy həm də öz dövrünün kamil ziyalısı olub, şeirə, sənətə dərin hörmət bəsləyib.

A.Bakıxanov yazırdı: «Gəncənin yaxınlığında Nizaminin gözəl bir türbəsi var idi. Xarabalığa üz tutmuş bu türbənin bəzi yerlərini Qarabağda yaşayan qazaxlı Mirzə Adıgözəl bəy indi təmir etdirməkdədir. «Qarabağnamə» əsərinin üzü 1848-ci ildə Tiflisdə şair Mirzə Şəfi Vazeh tərəfindən nəstəliq şikəstə xətti ilə nəfis şəkildə köçürülmüşdür. Hazırda həmin əsərin əlyazması Sankt-Peterburq şəhərindəki Şərqşünaslıq İnstitutunun kitabxanasında saxlanılır.

Rayonun Meşəli, Buzluq, Erkəs, Börü yaşayış məntəqələrində V-VIII əsrlərdə inşa edilmiş alban məbədləri ərazidə uzun illər albanların yaşadıqlarının təkzibolunmaz yadigarlarının olduğunu göstərir. Bu abidələr eramızın I əsrindən XVII-XVIII əsrlərinə qə-

dər böyük bir dövrü əhatə edir. Abidələr vaxtilə ərazidə xristianlığın yayılması ilə bağlı dəyişdirilmişdir. Təəssüf ki, torpaqlarımıza qarşı həmişə ərazi iddiası ilə çıxış etmiş bədnam erməni qonşularımız bu abidələrə «sahib çıxmaq» üçün müxtəlif vasitələrdən istifadə etmişlər. Onlar müxtəlif dövrdə bu abidələrin kitabələrini pozmuşlar. Məbədlərin ermənilərə aid olduğunu göstərən saxta yazılar qoyulmuşdur. Məsələn, Meşəli (Xarxarut) kəndində yerləşən alban məbədində aparılmış tədqiqatlar nəticəsində onun VII əsrə qədər tikildiyi,XII-XIII əsrlərdə isə yenidən bərpa edildiyi müəyyən edilmişdir.

Məbəddəki kitabələrdən birində onun tarixi bərpa olunduğu dövrdən, yəni 1230-cu ildən qeyd edilir. Lakin 1984-cü ildə Ermənistandan gəlmiş epiqrafist C.Q.Karapetyan «tədqiqat» adı ilə abidə üzərindəki sözləri erməni dilinə uyğunlaşdırmağa çalışaraq onu Koqeri kilsəsi adlandırmış, üzərindəki xoşbəxtlik rəmzi olan xaç işarələrini dəyişdirməyə çalışmışdır.

Məlumdur ki, Azərbaycanda oda möhkəm inanmış və sitayiş etmişlər. Hələ e.ə.III minillikdə təşəkkül tapmış ölüyandırma adəti son tunc və ilk dəmir dövründə də davam etmişdir. Qədim əcdadlarımız oda qoruyucu, müqəddəs və təmizləyici qüvvə kimi baxmışlar. Xaç, sivastika (çərxi-fələk) kimi işarələr odun, işığın, hərəkətin rəmzi rolunu oynayırdı. E.ə.XIII – XII əsrlərə aid Borsunlu kurqanlığından tapılmış dərin boşqabların səthi xaç nişanının müxtəlif variantları ilə bəzədilmişdir. Sarıçoban ( e.ə. XII-XI əsrlər) kurqanlarındakı qəbirin xaç şəklində qazıldığı müəyyən edilmişdir. Göstərilən misallar isə xaç işarəsinin xristianlıq dinindən çox-çox əvvəl mövcud olmasını, onun tamamilə başqa rəmzi məna daşıdığını sübut edir.

Xaç daşları üzərindəki naxışların daha yaxşı nümunələrini öyrənərkən belə qənaətə gəlmək olur ki, onların əsas məzmunu qədim tayfaların dini əqidəsi ilə bağlı olmuş, bütpərəstlik dövründə dini təsəvvür kimi formalaşmış, xristianlıq dövründə müqəddəs bir bəzək növünə çevrilmişdir. Məhz həmin dövrlərdə inşa edilmiş alban məbədlərində işığın, odun müqəddəsliyinin rəmzi kimi xaç işarələri qoyulurdu. Bu həm də alban tayfalarının müxtəlif təsirlərə məruz qalmasına baxmayaraq, öz dini etiqad və inamlarına sədaqətinin rəmzi idi. Bunun xaçpərəstlərin, ermənilərin dini etiqadlarının işarəsi kimi qəbul edilməsi düzgün deyil. Bu ərazilərdə ermənilərin qədimdən yaşaması tamamilə yanlışdır. 1828-ci ildən sonra bu ərazilərə köçürülmüş ermənilər azərbaycanlılara məxsus qədim qəbir abidələrini sındırmış, ərazinin azərbaycanlılara məxsusluğunu sübuta yetirən mənbələri məhv etməyə çalışmışlar.

Yüksək dağlıq hissədə yerləşən Mənəşli kənd qəbirstanlığında qədim qəbirüstü abidələrin sındırılması buna sübutdur. Sındırılmış abidələrdən birinin üzərində ərəbcə yazıda onun 1365-ci ilə aid olduğu göstərilmişdir. Cəlalilər dövründə bu abidənin salamat qalmış hissəsində aşağıdakı sözlər yazılmışdır: « Boyari kərbəlayi Həsənin köməkliyi ilə.

Hüseynin qəbri». Yaxud Erkəs və Buzluq kəndləri arasında hündür qayalıq üzərində tikintisi IV əsrə aid edilən, qaya daşları və əhəng qarışığından tikilmiş məbəd-qurbangaha (hazırda uçmuş vəziyyətdədir) yerli əhali min illər boyunca, pir kimi sitayiş etmişlər. Bugün də bura azərbaycanlılar tərəfindən ziyarət olunur, qurbanlar kəsilir. Məlumdur ki, müqəddəs inanc yerlərimiz heç də yaxın yüz illərin deyil, min illərin yaşıdıdır. Ən əsası isə ərazidəki yer adlarının bütün tarixi mənbələrdə türk mənşəli olması barədə kifayət qədər tutarlı faktlar var. Bədnam qonşuların bu faktların saxtalaşdırma cəhdlərinin heç bir əsası yoxdur.

Meşəli, Aşağı və Yuxarı Ağcakənd, Mənəşli kəndləri ərazisindəki XIX-XX əsrlərə aid qəbir daşları üzərində erməni yazılarının olması bizlərə ermənilərin sonradan gəlişini göstərir. Yer adlarının türk mənşəli olması, pirlərin, qurbangahların mövcudluğu, məişət, təsərrüfat və əmək məşğuliyyətləri və s. bu ərazilərin qədim türk tayfaları ilə bağlı olduğunu bir daha təsdiq edir.

**Abidələri öyrəndikcə rayonun tarixinin çox qədim olduğunu və bu torpaqda zəngin mədəniyyətin və mənəvi irsin toplandığının şahidi olursan. Dünən yaradılan hər bir abidə zamanın işidir. Tariximizi dərindən bilsək, bugünkü istiqlalımızı düzgün dəyərləndirə bilərik, milli varlığımızı gələcək insanlara çatdıra bilərik.**

**Son zamanlar rayonumuzda ucaldılmış abidələrdə yeni yaddaş yaratmaq, tariximizi öyrənərək yaşatmaq məramı əksini tapmışdır. Babaların yaratdıqlarını qorumalı, gələcək nəsillərə isə öz yaratdıqlarımızı yadigar qoymalıyıq.**

● **Gündüz HACIYEV,**
***Goranboy Rayon Mədəniyyət Və Turizm Şöbəsinin müdiri***